**UOT 6203.01**

**Rüstəm Elman oğlu Quliyev**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**Müəllim**
**E-mail: painter9713@gmail.com**

# FƏXRİ MƏDƏNİYYƏT İŞÇİSİ FİRUDİN QULİYEVİN YARADICILIĞINDA İBRAHİM PEYĞƏMBƏR OBRAZI

**Xülasə:** Bu məqalənin “Yaradıcı insan kimdir?”, “İbrahimin öz oğlunu qurban verməsi”, “F.Quliyevin tablosu bizə nə deyir?”, “Son söz” adlı dörd başlığı var. Hər başlıq konkret məqsəd və hədəf daşıyır.

Firudin Quliyevin bu tablosuna baxan tamaşaçı anlayar ki, o, islam dininin ayinlərinə hörmətlə yanaşan, Qurani-Kərimi mütaliə edərək həzrət İbrahim ilə bağlı faktları tabloya köçürən bir rəssamdır.

Hər bir tablonun mesajları olur, onları hər kəs oxuya bilmir, sənətdən anlayışı olanlar oxuya bilirlər. Bu tablonun öz mesajları var, “F.Quliyevin tablosu bizə nə deyir?” başlığında onlara aydınlıq gətirilib.

**Açar sözlər:** tablo, rənglər, mələk, İbrahim peyğəmbər, Kəbə, Qurani-Kərim

**Giriş.** Bu məqalə Qurani-Kərim ilə bağlılığı olan bir tablonun tədqiqinə həsr olunub. Məqalə müəllifi bir zaman özünün rəngkarlıq müəllimi olmuş Firudin Quliyevin “İbrahimin öz oğlunu qurban verməsi” tablosuna dair fikir və düşüncələrini bölüşür, Tisian, Rembrandt, Anton Losenko kimi fırça ustalarının eyniadlı tablolarını müqayisə üçün təqdim edir.

*Mətn.* Azərbaycan torpağının Astara şəhərində anadan olan, Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini bitirən, mənzərə, portret və natürmort janrlarında yüzdən çox əsər yaradan, 2020-ci il Lüksemburq Bədii Müsabiqə mükafatçısı, fəxri mədəniyyət işçisi Firudin Quliyev xalqımızın yaşlı nəslinə mənsub peşəkar rəssamlarından biridir.

## Yaradıcı insan kimdir?

Tanrının istedad, ilham verdiyi insanlar arasında şairlər, bəstəkarlar, rəssamlar və heykəltəraşlar ön sırada dururlar. İçində olan sevinci, acını, sarsıntını üzə çıxarmaq üçün şair sözünü şeirində, bəstəkar musiqisində, rəssam tablolarında, heykəltəraş ucaltdığı abidələrdə deyir. Bunların dördü də Yaradanın gözlə görünməyən, ağılla qavranmayan, hiss ilə duyulmayan xəzinəsindən yaradıcı mesajlar alırlar. Bu tükənməz mesajlardan şair poeziya, bəstəkar musiqi, rəssam tablo çəkmə, heykəltəraş daşdan abidə yonma payını alır. Şirinin gözəlliyini, İskəndərin əzəmətini Nizami vəsf edəndə, Məcnunun

sızıltısını Füzuli qələmə alanda, "Koroğlu" uvertürasını Üzeyir Hacıbəyli yazanda, Qara Qarayevin portretini Tahir Salahov yaradanda, Nizaminin abidəsini Fuad Əbdürrəhmanov ucaldanda sevgi və istedadın zirvəsində olublar.

Lev Tolstoy yazır ki, *"Sənətkarın üç özəlliyi var – düşünə bilir, gerçəyi görə bilir, cəmiyyəti anlaya bilir"* [2, s.63]. Adi insan o zaman yaradıcı insana dönür ki, o, yeni əsərinin necə orijinal olacağını, cəmiyyətə necə fayda verəcəyini düşünə bilir. İnsan düşünə bilməsə, gerçəyi görə bilməz, gerçəyi görə bilməsə, cəmiyyəti anlaya bilməz.

Qənaətimizcə, insan o zaman xoşbəxt olur ki, düz düşünə, düz danışa, düz yaşaya, xeyirsevər ola və əməksevər ola. Bu beş özəlliyin daşıyıcısı olan kəs sənət adamı olarsa, onun yaratdıqları məna və gözəllik qaynağı kimi könüllərə yol alaraq ölməzliyə qovuşar. Yaradıcı insan, sənətkar bir gün dünyadan köçər, amma qoyduğu irs, açdığı cığır, yaratdığı sənət əsəri onu yazılarda, yaddaşlarda, könüllərdə saxlayar. Sənətkar cismən ölür, mənən qalır. Leonardo da Vinçi, Mikelancelo, Rafael, Tisian, Rembrandt, İlya Repin, Səttar Bəhlulzadə, Mikayıl Abdullayev kimi rəssamlar yaradıcı olmayan dirilərdən qat-qat diridirlər.

Tablo, portret çəkən rəssam istəyirsə ki, çəkdiyi əsər sanballı alınsın, yaddaşlara həkk olunsun, sənət qaynağı olsun, gərək o, əsərin ruhuna forma, məna və elm gözəlliyi qatsın. Bu gözəllik üçlüyü hər zaman onun əsərinin qoruyucu mələyi olacaq. Unutmayaq ki, sənət əsəri pozitiv, könülaçan olarsa, o, sözsüz ki, pozitiv aura yaradacaq. Endryu Kornegi (1835-1919) yerli-yerində buyurur ki, "*Pozitiv olan pozitiv olanı özünə çəkər, bunu yaxşı-yaxşı yadda saxlayın"* [5].

İnanırıq ki, güclü potensialı, güclü istəyi olan rəssam istədiyi rəsm əsərini çəkə bilər, yetər ki rəssam bunu ürəkdən istəsin. İnsan nəyisə çox istəyəndə, sanki bütün kainat əl-ələ verib ona yardımçı olur. Endryu Kornegi obrazlı formatda deyir ki, *"Siz nəyisə çox istəyən zaman cazibə qanunu oyuna girir"* [5].

**"İbrahimin öz oğlunu qurban verməsi"**

XV əsrin ortalarından başlayaraq Avropanın ən görkəmli rəssamları xristianlıq mövzusunda yüzlərlə gözəl tablo çəkiblər. Bu tabloların çoxu İsa, anası Məryəm ilə bağlı olsa da, İbrahim peyğəmbərin öz oğlunu qurban verməsinə aid olanları da var. Bu mənada bir neçə tablonu qeyd edə bilərik:

- ✓ *Pyero Della Françeska, italyan rəssamı, "İsanın xaç suyuna salınması", 1450-1455, Milli Qalereya, London,*
- ✓ *Hans Memling, holland rəssamı, "İsanın məbəddə təqdim olunması", 1491, Milli İncəsənət Qalereyası, Vaşinqton,*
- ✓ *Rafael Santi, italyan rəssamı, "Məryəm körpəsi ilə", 1515-1519, Drezden Şəkil Qalereyası, Almaniya,*

- ✓ *Veçellio Tisian, italyan rəssamı, "İsanın tabuta qoyulması", 1559, Prado Rəssamlıq Muzeyi, Madrid,*
- ✓ *Rembrandt, holland rəssamı, "İbrahimin qurban verməsi", 1635, Ermitaj, Sankt-Peterburq,*
- ✓ *Rembrandt, holland rəssamı, "İsa öz şagirdləri ilə Emmausda", 1648, Luvr muzeyi, Paris,*
- ✓ *Covanni Tyepolo, italyan rəssamı, "Müqəddəs Məryəm", 1767-1769, Prado Rəssamlıq Muzeyi, Madrid.*

Peyğəmbərlər və İbrahim peyğəmbərin oğulları olaraq İsmail və İshaq adları Qurani-Kərimdə yer alır, amma qurban vermədə nə İsmail, nə də İshaq adları səslənmir. Tövratda isə İbrahim peyğəmbərin oğlu kimi İshaq adı xatırlanır.

Firudin Quliyev islam dininə, onun ayinlərinə sayğı ilə yanaşan rəssamdır. Onun çoxsaylı tabloları arasında "İbrahim peyğəmbərin öz oğlunu qurban verməsi" önəmli yer tutur. Bu tablonun "İbrahim, İsmail, mələk, şeytan" olmaqla dörd aparıcı obrazı var. Qurana görə, insan torpaqdan, mələk nurdan, şeytan isə oddan yaranıb. Quran xəbər verir ki, şeytanın insana qarşı mübarizəsi bitən deyil, Qiyamət qopana kimi davam edəcək. Bu əsər onların barışmaz qarşıdurmasına, İbrahimin öz dininə bağlılığı üzündən ən şirin nemət olan yeniyetmə çağına girən balasını qurban verməsinə, İbrahimin bu yanaşmasından şeytanın acınacaqlı durumuna həsr olunub. Xeyirlə şərin mübarizəsinə sonda Yaradan qarışır və Onun səmadan endirdiyi qoçla Peyğəmbər şeytan üzərində qələbə çalır. Əsərin başında tamaşaçını qorxulu notlar qarşılayır (o zaman ki, ahıl yaşda ata əlində iri bıçaqla yeniyetmə oğlunun başını kəsməyə hazırlaşır), amma qucağında qoç olan mələyi atanın görməsi ilə əsərdəki kompozisiya kulminasiya (zirvə) nöqtəsinə girir və bundan sonra tamaşaçını nikbin, pozitiv notlar qarşılayır.

Qurani-Kərimdə yer alan "Saffat" surəsinin 100-dən 107-dək olmaqla səkkiz ayəsində İbrahimin öz oğlunu qurban verməsi belə təqdim olunur [1, s.448]:

- ✓ *(İbrahim müqəddəs torpağa yetişdikdən sonra dua edib) dedi: "Ey Rəbbim! Mənə salehlərdən olacaq (bir övlad) bəxş et".*
- ✓ *Biz də ona həlim xasiyyətli bir oğlan uşağı (İsmail) ilə müjdə verdik.*
- ✓ *O, yüyürüb qaçmaq (atasına kömək edə bilmək) çağına (on üç yaşına) çatdıqda (İbrahim) dedi: "Oğlum! Yuxuda gördüm ki, səni qurban kəsirəm. Bax gör (bu barədə) nə fikirləşirsən?" O dedi: "Atacan! Sənə nə əmr olunursa, onu da et. İnşallah, mənim səbirlilərdən olduğumu görəcəksən".*
- ✓ *Onların hər ikisi (Allahın əmrinə) təslim olduğu və (İbrahim) onu (qurban kəsmək üçün) üzü üstə yerə yıxdığı zaman*
- ✓ *Biz ona belə xitab etdik: "Ya İbrahim!*

- ✓ *Artıq sən (əmr olunduğun işi yerinə yetirməklə) röyanı doğru hesab etdin (onun Allahdan olduğuna inandın. İndi Allah sənə lütf edərək, oğlunun əvəzinə bir qoç kəsməyi buyurur). Biz yaxşı əməl sahiblərini belə mükafatlandırırıq".*
- ✓ *Şübhəsiz ki, bu, açıq-aydın bir imtahan idi.*
- ✓ *Biz ona böyük bir qurbanlıq (Habilin qurbanlıq qoçunu) əvəz verdik.*


**Firudin Quliyev, "İbrahimin öz oğlunu qurban verməsi"**

Yuxarıdakı sitatların mötərizələrində verilən qeydlər şərqşünas akademik Ziya Bünyadova məxsusdur. Akademik onları mötəbər islami rəvayət və qaynaqlardan iqtibas edib.

Qurani-Kərimdə adına surə olan, barəsində yüzə yaxın ayədə danışılan "İbrahim" tablonun aparıcı obrazıdır. Bu səma kitabının tərcüməsini mütaliə etmiş Firudun Quliyev şəriət sahibi olan Peyğəmbərin nurlu, xəfifcə ciddi, mənalı, müdrikanə, ağ saqqala bürünən simasını, düşmən qarşısında əyilməyib şax dayanan qamətinin oturaq durumunu, Allah fərmanını yerinə yetirmək üçün sağ əlindəki bıçağın görünüşünü, arxasında gizli duran şeytandan xəbəri olmayıb qucağında qoç tutan mələyə şaşırıcı baxışını doğrudan da gözəl təqdim edib.

Xalq rəssamı Qəzənfər Xalıqovun 1940-cı ildə çəkdiyi "Nizami Gəncəvi" portretinin ağ çalmasının sağ ucu şairin çiyninə düşdüyü kimi, Firudin Quliyevin çəkdiyi tabloda da, Peyğəmbərin ağ çalmasının sağ ucu Peyğəmbərin sağ çiynindən aşağı düşüb. Qəzənfər Xalıqovun təsvirində çalma tam ağ deyil, qara rənglə qarışıqdır, bu da şairin orta yaşda olmasına işarədir. Firudin Quliyevin variantında isə çalma Peyğəmbərin saqqalı, qaşı kimi tam ağdır və bu da onun qoca yaşda olmasına eyhamdır. Çalmanın ağ rəngdə olması təsadüf üzündən seçim deyil, konkret bir simvola bağlıdır. Belə ki, rəngkarlıqda ağ rəng təmizliyin, düzlüyün, günahsızlığın, paklığın, uca məqamın simvoludur. Bu göstəricilərin hamısı, Qurana görə, İbrahim peyğəmbərdə olub.


**Tisian, İtaliy XV əsr, "İbrahimin qurban verməsi"**

Peyğəmbərin yaşıl əbasının hər iki qolu çırmalanıb, bu onu göstərir ki, o, oğlunu qurban kəsməyə tam qərarlıdır. Bir də ki, yaşıl rəng islamın (Qiyamətədək təravətini itirməyəcək dinin) simvoludur. Digər tərəfdən, Quran açıq-aydın buyurur ki, "İbrahim nə yəhudi, nə də xaçpərəst idi. O ancaq batildən haqqa dönən (haqqa tapınan) bir müsəlman idi və müşriklərdən də deyildi [1, s.57]. Demək, rəssam əbanı yaşıl rəngə boyamaqda haqlıdır. Bu incə çaları o rəngkar verə bilər ki, Quranın mahiyyətindən xəbərdar olsun.

Qurani-Kərimdə adları çəkilən Nuh, İbrahim, Musa, İsa və Məhəmməd şəriət sahibi olan peyğəmbərlərdir. Bunların beşinə də dahi Nizami özünün zəngin poeziyasında geniş yer ayırır. Firudin Quliyevin fırçasında İbrahim obrazı nur, düzlük, vəfa, həlimlik (mülayimlik), müsəlmanlıq saçır, yəhudilik və xaçpərəstlik saçmır. Bu ona görə belədir ki, Qurani-Kərim bu özəllikləri həzrət İbrahimə xas edir.

Tam əminik ki, Peyğəmbərin bu özəlliklərinə Firudin Quliyevin sevgi və sayğısı olub. Rəssamın fırçasına sevgi və sayğı olmaqla iki platonik duyğu diktə etməsə, insanların könlünü açan, onlara insanlığı aşılayan sənət əsəri ortaya çıxmaz. Rəngkarlığın postimpressionizm cərəyanının dahi təmsilçisi, holland rəssamı Vinsent Van-Qoq (1853-1890) doğru deyir ki, *"Əldən gəldiyi qədər çox sevməliyik, çünki əsl güc sevgidədir. Çox sevən adam böyük işlər görür"* [3].


**Rembrandt, Hollandiya, XVII əsr, "İbrahimin qurban verməsi"**

Rəssama güc, enerji verən faktorların başında yenə sevgi, insanlara olan sevgi durur. İnsani dəyərlərə olan sevgi fırça ustasına enerji verir, enerji yorulmazlıq verir, yorulmazlıq da uğurların yerləşdiyi saxlancın açarıdır. Buna görə Van-Qoq buyurur ki, *"Sevgi çətinliklər gətirir, ancaq onun yaxşı tərəfi odur ki, o, enerji verir"* [3].

Nəzərimizcə, təkcə insanları sevmək insan üçün etalon deyil, etalon odur ki, Çarlz Darvin [1809-1882] deyir: *"Bütün canlıları sevmək insanın əsl özəlliyidir"* [4].

Tabloda ikinci obraz İsmail obrazıdır. Bu peyğəmbər balası üçün Quranda söylənən xoş sözlər tabloda yerini tutur mülayim və baxımlı üzü var, yeniyetmə çağındadır. Statik (tərpənməz) durumda olan uşağın üzünə dəsmal çəkilib, əlləri arxadan bağlanıb. Uşaq ilahi əmrə qarşı çıxmır, sakit uzanıb, əl-qol atmır, məsum (günahsız) üzünə vida ifadəsi çöküb.

Quranda “vədinə sadiq elçi – peyğəmbər” [1, s.308] olaraq anılan İsmail peyğəmbər, fikrimizcə, İbrahim peyğəmbərin qurban kəsmək istədiyi oğludur. Quranın “Ali-İmran” surəsinin 84-cü ayəsinə əsasən bu rəyi söyləyirik. Bu ayədə “İbrahim, İsmail, İshaq, Yəqub” ad sıralamasında İbrahim adından sonra İsmail adı gəlir, Tövratın qurban olunan dediyi İshaq gəlmir. Bundan başqa, “Bəqərə” surəsinin 133-cü ayəsində də “İbrahim, İsmail, İshaq” sıralaması saxlanılır.

Firudin Quliyev tabloda İbrahim obrazının arxasında Kəbə evinin təsvirini verib. Rəssam düz iş görüb, çünki “Bəqərə” surəsinin 127-ci ayəsində buyurulur ki, *“Onu da yada sal ki, İbrahim və İsmail o evin (Kəbənin) bünövrəsini ucaltdıqları zaman dua etdilər ki, ey Rəbbimiz, (bu xeyir işi) bizdən qəbul et, Sən, doğrudan da, eşidənsən, bilənsən”* [1, s.127].

Tablonun üçüncü obrazı mələk obrazıdır. O mələk ki, gərilmiş iki qanadı var, qucağında qara qoç tutub, qurban kəsilənin yaşına uyğun görkəmi var, su pərisinə oxşayır, uçaraq gəlməyi ilə Peyğəmbəri təəccübə salıb. Uzuna və enə çox gərilən qanadların üst qatı yaşıl rəngə, alt qatı qırmızı rəngə boyanıb, mələyin uzun boyu tünd qırmızı rəngdə verilib.



Rəssam mələyi təsadüfən ikiqanadlı verməyib. Bu yanaşma Qurana dayanır. “Göyləri və yeri yoxdan yaradan, ikiqanadlı, üçqanadlı, dördqanadlı mələkləri (peyğəmbərlərə) elçi edən Allaha həmd olsun” [1, s.322] ayəsi dediyimizi təsdiq edir.

Avropa rəssamlarının tablolarında olduğu kimi, bu tabloda da mələk obrazı mərhəmətin, günahsızlığın, ilahi yardımın, acıların ardınca cücərən ürpək ümidin simvolları sırasında yer alır.

Tablonun dördüncü obrazı şeytan obrazıdır. O şeytan ki, Qurana görə, insanın düşmənidir [1, s.24], insana pis və çirkin işləri əmr edir [1, s.24], insanı tovlayıb yoldan çıxarır, onu ümidsizliyə

salır, onu bədbəxt etdikdən sonra başlı-başına buraxır.

Tabloda şeytan quyruqlu, buynuzlu, iri qulaqlı, eybəcər görkəmdə verilib. Peyğəmbərin arxasında duran şeytanın təəccüblü diqqəti mələyə yönəlib. Ona görə yönəlib ki, mələk qoçu gətirməsəydi, şeytan Peyğəmbərin öz uşağının boynunu kəsməsinə tamaşa edib həzz alardı.

Qeyd edək ki, "İbrahimin qurban verməsi"ni çəkmiş heç bir avropalı rəssam öz əsərində şeytan obrazına yer ayırmayıb. Bu, Firudin Quliyevin tapıntısıdır. Ola bilməz ki, islam, yəhudilik, xaçpərəstlik dinlərinin ortaq ulu peyğəmbəri olan İbrahim peyğəmbər oğlunu qurban kəsir və şeytanı sevindirəcək bu işdən şeytanın xəbəri yoxdur.

**Firudun Quliyevin tablosu bizə nə deyir?**

Bu tablo bizə dörd mesaj verir. Hər biri çağdaş günümüzdə yeniyetmələrin və gənclərin düzgün həyat tərzi seçməsində önəm daşıyır:

- ✓ *Peyğəmbər simasında dinin yasaq və buyruqlarına saygı,*
- ✓ *Yeniyetmə oğlan simasında ata-anaya ehtiram,*
- ✓ *Mələk simasında doğru-düzgün yaşam, çətinliklər qarşısında dözüm, ağ günün gələcəyinə inam,*
- ✓ *Şeytan simasında cinayət, günah, haqsızlığa yol açan işlərdən çəkinmə.*

**Son söz**

Bu məqalədə ilahi kəlam olaraq Qurani-Kərim, irfan-fəlsəfə düşüncəsinin dahi şairi olaraq Mövlana Cəlaləddin Rumi, dünyaca tanınan ingilis təbiətşünası olaraq Çarlz Darvin, dahi rus yazarı olaraq Lev Tolstoy, dünyaca tanınan holland rəssamı olaraq Vinsent Van-Qoq, şotland əsilli amerikan milyarderi olaraq Endryu Kornegi kimi qaynaqlardan sitatlar yer alır. Örnək olaraq gətirilən hər bir sitat məqalənin qarşısına qoyulan hədəflərə çatmaq üçün yardımçı bir vasitədir.

Bu məqalə Firudin Quliyevin sənət irsini tədqiq edən ilk elmi yazıdır. Məqalənin elmi yeniliyi odur ki, rəssamın bir tablosu sənətşünaslıq və Qurani-Kərim ilə bağlılıq baxımından araşdırılır.

Sənətşünaslar və tədqiqatçılar Firudun Quliyevin çəkdiyi əsərlərin incə qatlarını, mesajlarını, çağırışlarını öyrənib, yazılarında işıqlandırmalıdırlar. Mövlana Rumi (1207-1273) dediyi kimi: "*Sən çiçək olub ətrafa gülcüklər saçmaya söz ver, torpaq olub səni başının üstündə daşıyan tapılar"* [6].

**Ədəbiyyat siyahısı:**

1. Qurani-Kərim, Bakı, "Nurlar", 2017, 624 s.
2. Tolstoy L., Sanat Nedir?, Şule Yayınları, İstanbul, 1992, 253 s.
3. https://www/youtube.com/bilgelik sözleri/Vincent Van Gogh atasözleri
4. https://www/youtube.com/ulubenlik gelişim/Darvinin bilge sözleri

5. https://www/youtube.com/вселенная внутри тебя/Эндрю Корнеги
6. https://www.instagram.com/zkose47/Mevlana

**Рустам Эльман оглы Кулиев**

**ОБРАЗ ПРОРОКА ИБРАГИМА В ТВОРЧЕСТВЕ ПОЧЕТНОГО РАБОТНИКА КУЛЬТУРЫ ФИРУДИНА КУЛИЕВА**

**Резюме:** Эта статья посвящена четырём темам: «Кто такой творческий человек?», «*Авраам приносит в жертву своего сына* », «О чем говорит нам картина Ф. Гулиева?», «Эпилог». Каждая тема имеет определенную цель и задачу.

Глядя на эту картину Фирудина Гулиева, зритель поймет, что это художник, уважающий обряды ислама, читающий Священный Коран и перенесший на картину факты, связанные с Авраамом.

На каждой картине есть сообщения, не все могут их прочитать, те, кто разбирается в искусстве, могут их прочитать. Об этом идет речь в заглавии " О чем говорит нам картина Ф. Гулиева?"

**Ключевые слова:** картина, краски, ангел, пророк Авраам, Кааба, Священный Коран

**Rustam Elman oghlu Guliyev**

**THE IMAGE OF THE PROPHET IBRAHIM IN THE WORK OF THE HONOURED CULTURAL FIGURE FIRUDIN GULIYEV**

**Summary:** This article has four headings: "Who is a creative person?", "Abraham sacrificed his son", "What does F. Guliyev's picture tell us?", "Epilogue". Each heading has its definite purpose and duty.

Looking at this picture of Firudin Guliyev, the viewer will realize that he is an artist who respects the rites of Islam, who reads the Holy Koran and transfers to the picture the facts about His Majesty Abraham.

Every picture has its messages, not everyone can read them, those who are educated in art, can read them. This picture has its own message. The heading named "What does F. Guliyev's picture tell us?" explaines them.

**Key words**: painting, colours, angel, prophet Abraham, Kaaba, The Holy Koran

**Məqalənin redaksiyaya daxil olma tarixi: 25.09.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**